AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ
PUBLİK HÜQUQİ ŞƏXS

AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

Təsdiq edirəm
ADMİU-nun rektoru
_________professor C.E.Mahmudova

# ADMİU-da APELLYASİYAYA MÜRACİƏTLƏRİNİN QƏBULU VƏ BAXILMASI HAQQINDA

# ƏSASNAMƏ

Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin Elmi Şurasının
12 sentyabr 2023-cü il tarixli iclasının
01 №-li protokolu ilə təsdiq edilmişdir

Bakı - 2023

# ADMİU-da apellyasiya müraciətlərinin qəbulu və baxılması haqqında
# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1 ADMİU-nun Apellyasiya Komissiyası (Bundan sonra Apellyasiya Komissiyası) ADMİU-nun nəzdində fəaliyyət göstərən hər semestr ərzində keçirilən habelə sessiya imtahanları və dinləmədən təkrar imtahan nəticələrindən narazı qalan təhsilalanların və iddiaçıların verdikləri şikayətlərə (bundan sonra – şikayət) baxır və ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

1.2 Apellyasiya Komissiyası öz fəaliyyətində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1060 saylı, 11.09.2008-ci il tarixli "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"nin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 348 saylı, 24.12.2013-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nı, o cümlədən 5 aprel 2018-ci il tarixli Mərkəzi və Yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları haqqında Əsasnaməni, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 301 nömrəli publik hüquqi şəxsə çevrilməsi haqqında qərarını, bu qərara əlavə olaraq təsdiq edilmiş ADMİU-nun Nizamnaməsini və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3 Apellyasiya Komissiyası öz fəaliyyətini qanunçuluq, şəffaflıq, kollegiallıq və qərəzsizlik prinsipləri əsasında qurur.

## 2. Apellyasiya Komissiyasının vəzifələri

Apellyasiya Komissiyasının vəzifələri aşağıdakılardır:

2.1 Apellyasiya Komissiyasına daxil olan şikayətlər üzrə hərtərəfli, tam və obyektiv araşdırma aparmaq, mahiyyəti üzrə baxılmış şikayətlərə dair əsaslandırılmış yazılı qərar (protokol) qəbul etmək;

2.2. aidiyyəti şəxsləri Apellyasiya Komissiyasının iclaslarına dəvət etmək;

2.3. Apellyasiya Komissiyasının qəbul etdiyi qərarların icrasına nəzarət etmək;

2.4. Apellyasiya Komissiyasında baxılan şikayətlərin qeydiyyatını aparmaq, protokolunu tərtib etmək, ümumiləşdirmək və ildə iki dəfə tələb olunan formada ADMİU rektoruna (hesabatlar) təqdim etmək;

2.5. fəaliyyəti zamanı insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

2.6. Apellyasiya Komissiyasının qəbul etdiyi qərarlarla bağlı izah vermək.

## 3. Apellyasiya Komissiyasının hüquqları

3.1. şikayət vermiş şəxslərin, habelə digər əlaqəli şəxslərin iştirakı ilə araşdırma aparmaq, onlardan izahatlar almaq;

3.2. Apellyasiya Komissiyasının fəaliyyətinin səmərəliliyinin artırılması üçün təkliflər vermək;

3.3. təhlillər və ümumiləşdirmələr aparmaq, şikayətlərin araşdırılması zamanı aşkar edilmiş nöqsanların, çatışmazlıqların aradan qaldırılması ilə bağlı təkliflər vermək;

3.4. Apellyasiya Komissiyasının qərarlarının yerinə yetirilməsinin monitorinqini aparmaq və buna nəzarət etmək, habelə nöqsanların aradan qaldırılması üzrə tədbirlər görmək;

3.5. Apellyasiya Komissiyasının fəaliyyətinə ekspert, mütəxəssis və məsləhətçilər cəlb etmək;

Bu bənddə göstərilmiş şəxslərin iclasa gəlməməsi şikayətə baxılmasına və müvafiq qərarın qəbul edilməsinə mane olmur.

Şikayətçilər (onların valideynləri) Apellyasiya Komissiyasının iclasında iştirak etmək hüququna malikdirlər.

## 4. Apellyasiya komissiyasının fəaliyyətinin təşkili

4.1. Kollokvium (aralıq imtahanı) və imtahan nəticələri ilə bağlı müraciətlərin araşdırılması məqsədi ilə hər tədris ilində tədris olunan fənlərin xüsusiyyətləri nəzərə alınaraq ADMİU rektorunun əmri ilə Apellyasiya Komissiyası yaradılır və Elmi Şurada da təsdiq edilir.

4.2. Apellyasiya Komissiyasının tərkibi - sədr, sədr müavini, katib, üzvlərdən (dekan, kafedra müdirləri və s.) ibarət olmaqla təsis olunur.

4.3. Sədr komissiyanın iclasında obyektiv səbəbdən iştirak edə bilmədikdə, onun vəzifə və səlahiyyətləri sədr müavini tərəfindən həyata keçirilir.

4.4. Komissiya üzvləri dekanların, kafedraların və aidiyyatı struktur bölmələrin əməkdaşları arasından semestrdə tədris olunan fənlər üzrə müəyyən edilir.

*Apellyasiya Komissiyasının sədri:*

4.5.Apellyasiya Komissiyasının işini təşkil edir və ona rəhbərliyi həyata keçirir;

4.6.Apellyasiya Komissiyasının adından çıxarılan qərarları, məktubları və Apellyasiya Komissiyasının fəaliyyəti ilə bağlı digər sənədləri imzalayır;

4.7.Apellyasiya Komissiyasının iclaslarının gündəliyini, reqlamentini müəyyənləşdirir və keçirilən iclaslarda sədrlik edir;

4.8. Apellyasiya Komissiyasının səlahiyyətlərinə aid məsələləri baxılmaq üçün Komissiyasının iclaslarına çıxarır;

4.9. Apellyasiya Komissiyasının təmsil edir.

4.10. Apellyasiya Komissiyasının ilkin yoxlamanın nəticələrinə düzəliş etmək səlahiyyəti vardır.

4.11. Apellyasiya ərizələrinin düzgün yoxlanılmasına nəzarət etmək məqsədilə komissiya tərəfindən seçmə üsul ilə yoxlanılmış apellyasiya ərizələrinin ekspertizası təşkil oluna bilər.

4.12. Apellyasiya Komissiyasının sədri apellyasiya prosesinin şəffaf və obyektiv keçirilməsini təmin edir.

*Apellyasiya Komissiyasının üzvlərinin hüquq və vəzifələri aşağıdakılardır:*

4.13. Apellyasiya Komissiyasının iclaslarında və fəaliyyətində iştirak etmək;

4.14. Apellyasiya Komissiyasına daxil olan şikayətlərlə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma aparmaq;

4.15. Apellyasiya Komissiyasına daxil olan şikayətlərlə əlaqədar münasibət bildirmək, rəy və təkliflər vermək;

4.16. Apellyasiya Komissiyasına daxil olan şikayətlərlə əlaqədar ilkin araşdırma üçün təqdim edilmiş sənədlərin (toplanmış materialların) kifayət olmadığı qənaətinə gəldikdə, əlavə sənədlərin əldə edilərək araşdırma materiallarına daxil edilməsini tələb etmək;

4.17. Apellyasiya Komissiyasına daxil olan şikayətlərlə əlaqədar Apellyasiya Komissiyasının adından qərarların qəbul edilməsi ilə bağlı səsvermədə iştirak etmək;

4.18. Apellyasiya Komissiyası iclasının protokolu ilə tanış olmaq və protokola qeydlər təklif etmək;

4.19. Apellyasiya Komissiyasının qərarı ilə razılaşmadıqda bu barədə özünün əsaslandırılmış xüsusi rəyini yazılı şəkildə təqdim etmək;

4.20. Apellyasiya Komissiyasının iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmaq;

4.21. Apellyasiya Komissiyasının səlahiyyətlərinə aid təşkilati məsələlər barədə təkliflər vermək;

icra intizamına ciddi əməl etmək;

4.22. bu Əsasnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək və hüquqları həyata keçirmək.

4.23. Apellyasiya müraciətlərinə baxılması ilkin yoxlanışını həyata keçirən müəllim tərəfindən həyata keçirilə bilməz.

4.24. İmtahan nəticələrinin təkrar yoxlanılması ilə bağlı bir dəfə apellyasiya ərizəsi qəbul edilir və qiymətləndirilmiş apellyasiya ərizələri ilə bağlı təkrar müraciətlər qəbul olunmur.

4.25.Apellyasiya Komissiyası tərəfindən baxılmış müraciətlər üzrə nəticələrə dair növbəti semestr başlayanadək katib tərəfindən protokol tərtib edilir və komissiya üzvləri tərəfindən imzalandıqdan sonra arxivləşdirilir.

4.26.Komissiyanın katibi tərəfindən cavablandırılmış apellyasiya müraciətlərinə dair qərar layihəsi hazırlanır və qərar qəbul edilməsi məqsədilə komissiya üzvlərinin müzakirəsinə təqdim olunur.

4.27.Apellyasiya Komissiyasının katibi yekun qərarı komissiya üzvlərinin 2/3-nin iştirak etdiyi iclasda təqdim edir və qərar sadə səs çoxluğu ilə qəbul edilir.

4.28. Apellyasiya Komissiyasının iclası onun üzvlərinin azı üçdə ikisi iştirak etdikdə baş tutmuş sayılır.

4.29. Apellyasiya Komissiyasının iclasında qərarlar açıq səsvermə yolu ilə iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Apellyasiya Komissiyasının sədrinin səsi həlledici sayılır. Şuranın sədri axırıncı səs verir.

*Şikayətçi:*

4.30.Şikayəti yazılı formada tərtib edir. Şikayətdə aşağıdakı məlumatlar göstərilir:

- şikayətçinin soyadı, adı, atasının adı,
- şikayətin məzmunu və şikayətçinin tələbi (tələbləri)

**5. Yazılı formada attestasiya olunan fənlər üzrə apellyasiyanin təşkili və keçirilməsi**

5.1.Apellyasiya müraciətinə əsas yaradan hallar aşağıdakılardır:

- imtahan suallarının tərtibində nəzəri və ya texniki səhv olduqda;
- hər hansı sualdan birinin cavabı yoxlanılmadıqda;
- imtahan suallarına verilən balların toplanması zamanı səhvə yol verildikdə;
- tələbə tərəfindən konkret suallara verilən balın adekvat olmadığı iddia edildiyi halda;
- yenidən imtahan təşkil edilməsi üçün əsas yarandıqda.

5.2. Apellyasiya Komissiyasına ərizələrin qəbulu və onlara baxılması qaydaları:

5.2.1. İmtahan nəticələri elektron sistemə daxil edildikdən sonra tələbələr öz yazı işlərinə yoxlayıcı müəllimin hansı qeydlər aparması ilə bilavasitə tanış olması məqsədilə fakültə dekanlıqlarına müraciət edir və fakültə dekanlıqları tərəfindən müəyyən olunmuş vaxt ərzində (imtahan nəticələri elektron sistemdə elan olunduqdan 3 gün ərzində) yazı işi ilə tanış olduqdan sonra apellyasiya müraciəti edib-etməyəcəyinə dair qərar verir.

5.2.2. Apellyasiya müraciəti imtahan nəticələrinin sistemə daxil olunduğu tarixdən sonrakı 5 gün ərzində ADMİU-nun ümumi şöbəsinə təqdim olunur.

- Apellyasiya ərizələrinə müraciət daxil oduğu gündən sonrakı 5 gün müddətində baxılmalıdır;
- Vahid sillabuslar üzrə təşkil olunan kollokvium və imtahanlar üzrə apellyasiya müraciətlərinə baxacaq müəllim siyahısı komissiya tərəfindən müəyyən edilir.

**6. Test üsulu ilə attestasiya olunan fənlər üzrə apellyasiyanin təşkili və keçirilməsi**

6.1.Test üsulu ilə keçirilən imtahan nəticələrindən aşağıdakı hallarda apellyasiya ərizəsi təqdim edilə bilər:

- İmtahan testlərinin tərtibində hər hansı bir qüsur olduqda;
- İmtahan zamanı hər hansı bir texniki problem yaranarsa.

6.2.Test üsulu ilə təşkil olunmuş imtahan nəticələrinin apellyasiya ərizələri, suallarda qüsur olduğu halda fənni tədris edən müvafiq Fakültə üzrə Apellyasiya Komissiyalarına yönləndirilir,

6.3.İmtahan zamanı texniki qüsurlara yol verildikdə isə müraciətin araşdırılması "İmtahan təşkili" şöbəsinə yönləndirilir.

**7. Şifahi üsul ilə (yaradıcı) attestasiya olunan fənlər üzrə apellyasiyanın təşkili və keçirilməsi**

7.2.Şifahi üsulu ilə keçirilən imtahan nəticələrindən aşağıdakı hallarda apellyasiya ərizəsi təqdim edilə bilər:

- - tələbə tərəfindən verilən balın adekvat olmadığı iddia edildiyi halda;
- yenidən imtahan təşkil edilməsi üçün əsas yarandıqda.
- Şifahi üsul ilə təşkil olunmuş imtahan nəticələrinin apellyasiya ərizələri və tamaşaların videolenti, rəsm əsəri və s. fənni tədris edən müvafiq Fakültə üzrə Apellyasiya Komissiyalarına yönləndirilir,

## 8. Apellyasiya komissiyasının qərarının rəsmiləşdirilməsi

8.1 Apellyasiya müraciətlərinə baxılmasının nəticələrinə dair qəbul edilmiş rəy protokol və qərar ilə rəsmiləşdirilir və bu haqda müraciət edən şəxsə məlumat verilir.

8.2. Apellyasiya müraciətinə müvafiq fənn üzrə digər müəllim tərəfindən yalnız bir dəfə baxılır və onun nəticəsi ilə bağlı tələbə yenidən apellyasiya müraciətinin nəticəsi ilə əlaqədar apellyasiya verə bilməz.

8.3. Apellyasiya Komissiyasının yekun qərarı sədr, sədr müavini, katib və üzvlər tərəfindən imzalanaraq rəsmi şəkildə müvafiq struktur bölmələrinə məlumat verilir.

8.4. Apellyasiya ərizəsinə baxan müəllim balın azaldılması qənaətinə gələrsə bu barədə Apellyasiya Komissiyasına müraciət edir və məsələ araşdırılır.

8.5 Apellyasiya müraciətlərinin yoxlanılması zamanı qeyri-obyektiv qiymətləndirilmə aşkar edilərsə, bu barədə universitet rəhbərliyinə müraciət olunur.

8.6. Apellyasiya prosesi son imtahan günündən 10 gün sonra yekunlaşır.

**9. Apellyasiya Komissiyasının iclas protokollarına və qəbul etdiyi qərarlara dair tələblər:**

9.1. İclas protokolunda aşağıdakılar göstərilməlidir:

- iclasın keçirildiyi tarix və yer;
- iclasa sədrlik edən və iclasda iştirak edən Apellyasiya Komissiyası üzvlərinin, dəvət edilmiş digər şəxslərin adları, soyadları və ata adları;
- gündəliyə daxil edilmiş şikayətin predmeti, qısa məzmunu və əsasları;
- səsə qoyulan təkliflər, səsvermənin nəticəsi və Apellyasiya Komissiyası tərəfindən qəbul edilmiş qərar.
- Apellyasiya Komissiyası şikayət üzrə aşağıdakı qərarlardan birini qəbul edir:
- qərar dəyişdirilmədən saxlanılsın;
- qərar tamamilə və ya qismən ləğv edilərək, yeni qərar qəbul edilsin;
- qərar dəyişdirilsin;
- şikayət digər hərəkət və ya hərəkətsizlikdən verilibsə, həmin hərəkət və ya hərəkətsizlik qanuni və ya qanunsuz hesab edilsin
- şikayətin məzmunundan və işin hallarından asılı olaraq qərarda aşağıdakı məsələlər də öz əksini tapmalıdır:
- şikayətin təmin edilməsi;

- şikayətin qismən təmin edilməsi;
- şikayətin təmin edilməməsi;
- qərar əsaslandırılmış şəkildə tərtib olunmalı və işin bütün hallarını özündə əks etdirməlidir.